# Azərbaycanda ilk alman koloniyaları, Köçkünlük həyatı və təsərrüfatı

***Alman-Azərbaycan əlaqələrinin müasir inkişafı üçün ən aktual istiqamətlərdən biri həmin əlaqələrin tarixi təsvirinin düzgün verilməsidir. Qafqazın qədim və zəngin mədəniyyətinə maraq alman alimlərini və səyyahlarını Azərbaycana cəlb etmişdir. XIX əsrin birinci yarısında Alman və Azərbaycan xalqlarının ünsiyyətinin əsasını qoyan bir hadisə baş verdi.***

***Söhbət Azərbaycanda ilk alman koloniyasının yaranmasından gedir. Çoxları bu koloniyaları hələ müharibəyə qədər görmüş, bəziləri isə bunun haqqında başqa şahidlərdən eşitmişlər. Bu yerlərin sakinləri Azərbaycanda yaşayan almanlar haqqında bu gün də ətraflı məlumata malikdirlər. Lakin bəlkə də heç kim əslən Almaniyadan olan bu köçkünlərin nə vaxt və haradan buraya gəldiklərini bilmir. Bu hadisə belə olmuşdur.***

***Napoleonla müharibədən sonra Almaniyada xalqın vəziyyəti son dərəcə dözülməz bir vəziyyətə düşmüşdü. Bunun da nəticəsində kütləvi şəkildə Almaniyadan köçkünlük başladı. 1816-17-ci illərdə 15 koloniyadan ibarət olan 1400-dən çox ailə (6000 nəfər) öz vətənlərini tərk etdilər. 40 ailədən ibarət olan birinci koloniya min bir əzabla gəlib Tiflisə çatdı və şəhərin yaxınlığında ilk koloniya olan Marienfeldin əsasını qoydular. Bir neçə koloniya artıq irəli getmək istəməyərək Odessada məskən saldı, qalanları isə Qafqaza, öz həmyerlilərinin yanına getməyi üstün tutdular. Onların yolu Xerson, Rostov, Stavropol, Mozdokdan v.s keçirdi. Yolda yüzlərlə adam xəstəlikdən, epidemiyadan və soyuqdan həlak oldu. Lakin çətinliklə də olsa onlar öz məqsədlərinə çatdılar.***

Gürcüstanda köçkünlər Yekaterinenpol, Aleksandrdorf, Yeni Tiflis v.s kimi koloniyalar saldılar, 8, 9 və 10-cu koloniyalar öz başçıları Qotlob Kox, Yakob Krauze və İohann Vuxer ilə birlikdə Azərbaycanın Yelizavetpol quberniyasında yaşamaq üçün dövlətdən icazə aldılar. 1819-cu ilin dekabrında kazakların müşayəti ilə yorğun və əldən düşmüş köçkünlər Yelizavetpola gəldilər. (Yelizavetpol qədim Azərbaycan şəhəri olan Gəncə şəhəridir. Bu şəhərdə 1141-ci ildə məşhur Azərbaycan şairi Nizami Gəncəvi anadan olmuş, burada yaşamış və 1209-cu ildə həmin şəhərdə vəfat etmişdir. Şəhər sonralar Yelizavetanın şərəfinə Yelizavetpol, XX əsrin əvvələrində isə Kirovabad adlandırılmışdır. Nəhayət, 1999-cu ildə şəhərin öz qədim adını yenidən özünə qaytarmışlar.)

Köçkünlər çoxdan boş qalmış Qonaqlar kəndini yenidən bərpa etməyə başladılar. İlk günlər burada həyat çox dözülməz idi. Köçkünlərin sayının kəskin şəkildə azalması nəticəsində ilk evlər də çox çətinliklə tikilirdi. Bütün bu çətinliklərə baxmayaraq Azərbaycan ərazisində ilk alman koloniyası Helenendorf yaradıldı. 1915-ci ildə bu kənd rusların göstərişi ilə Yelenina, 1938-ci ildə isə Xanlar adlandırıldı. Sonralar Xanlar rayon mərkəzinə çevrildi. Bu Azərbaycan ərazisində ilk böyük alman icması idi. Burada 1821-ci ildə ilk dəfə olaraq İsveçrə missonerlərinin köməyi ilə Sinod çağrıldı.

Sinod Zaqafqaziyanın bütün alman icmaları üçün birinci ümumi kilsə nizamnaməsini qəbul etdi. Tarixdən məlumdur ki, 1836-cı ildə Yelenendorfda yaşayan almanlara məxsus 1100 üzüm tənəyi məhsul verirdi, alman kəndlilərinin 222 atı, 230 öküzü, 1137 iribuynuzlu, 127 xırdabuynuzlu mal-qarası, 150 donuzu vardı. İlk sənətkarlar meydana çıxırdı: 8 pinəçi, 8 dəmirçi, 4 dülgər, 4 dərzi, 7 furqon ustası və s. Nəzərə alsaq ki, icma üzvlərinin sayı yüzlərlə ölçülürdü, bu, heç də kiçik rəqəm sayılmamalıydı. Ancaq keyfiyyət və əmək mədəniyyəti göstəricilərinə əsasən maraqlı və incə təsərrüfatlardan bəhs etmək də mümkün idi. Belə ki, Yelenendorfda kolonist Qotlob Koxun rəngsaz emalatxanası yarandıqdan cəmisi 20 il keçəndən sonra o, artıq bütün Yelizavetpolun, quberniya mərkəzində şöhrət qazanmışdı. Qafqazın bütün sənətkarları icmanın furqon ustalarının yanına axışırdılar.

Bu ərazidə xüsusilə şərabçılıq çox güclü inkişaf etməyə başladı. Artıq 70-ci illərdə (1870) hər bir ailə ildə 1000-1500 vedrə şərab istehsal edirdi. 1869-cu il aprelin 22-də Koloniya artıq özünün yaradılmasının 50 illiyini təntənə ilə qeyd etdi. Bu illər ərzində kənd çox sürətlə inkişaf edib dəyişmişdi. Köçkünlər burada rahat, geniş evlər tikir, böyük meyvə bağları salırdılar. İqtisadiyyat da çox sürətlə irəliləyirdi və həyat səviyyəsi Almaniyada olan icmaların səviyyəsindən heç də geri qalmırdı. 1821-ci ildə köçkünlərin dini xadimi olan Yohann Yakob Krauz ilk ibadətxana açmağa cəhd göstərdi. 1834-cü ildə artıq belə bir ibadətxana hazır olur. 1842-ci ildə ilk məktəb də tikildi. Köçkünlərdən olan Xristian Qotlob Krauz və Qeorq Haynrix Hummel uzun müddət bu məktəbdə fəaliyyət göstərmişlər. 1854-cü il aprelin 24-cü Müqəddəs Yohann kilsəsinin ilk təməl daşı qoyuldu. Bu kilsədə köçkünlərin həyatı haqqında tarixi məlumatlar saxlanılırdı. Çünki hər xalqın öz yaddaşı olmalıdır.

Kilsənin inkişaf etməsində vaiz (moizəçi)Yohann Yakob Ştuberin çox böyük fəaliyyəti olmuşdur. O, uzun müddət burada kilsə tarixi və eyni zamanda dünya tarixi haqqında moizələr oxumuşdur. Qafqazda ilk alman məktəbinin əsasını qoyan Helenendorflu ilk peşəkar müəllim Albert Kirxof olmuşdur. Eyni zamanda bu məktəbdə Mayster Müller də 23 il müəllimlik etmiş, burada ilk uşaq bağçasını da o açmışdır. 1890-cı il noyabrın 22-də Helenendorf məktəbi peşə məktəbinə çevrilirdi, çünki onlar başa düşürdülər ki, bu hər bir xalqın həyatında həlledici əhəmiyyətə malikdir. Köçkünlərin həyatının bütün sahələrində mədəniyyətin inkişafı XX əsrin əvvəlində vaizlik edən Baron fon Enqelhardın adı ilə bağlıdır. Onun təşəbbüsü ilə burada gənclər üçün ilk ticarət məktəbi, evangelik və başqa icmalar yaranmışdı. 1893-cü ildən etibarən Helenendorfda ictimai yığıncaqlar keçirilməyə başlanmışdır. Bu yığıncağın üzvləri müntəzəm olaraq bir yerə yığışıb musiqi ilə məşğul olur və dini mahnılar oxuyurdular. Bütün bunlara baxmayaraq burada köçkünlərin həyatı heç də tam sərbəst deyildi. Qafqazda yaşayan bütün köçkünlərin hərəkəti dövlət müfəttişliyi tərəfindən nəzarət altında saxlanılırdı.

Səliqə-sahman alman koloniyası üzvlərinin nizam-intizamı və qanunpərəstliyi ilə şərtlənirdi. İcmanın başçısı şults-starosta seçilir və kənd cəmiyyətinin təsərrüfat, maddi, mənəvi həyatının mexanizmləri üçün cavab verirdi. Hər halda koloniya həyatının müstəqil idarəçiliyindən danışmaq mümkün deyildi, belə ki, Zaqafqaziyadakı alman icmalarının daxili və xarici həyatına hökumət müfəttişi nəzarət edirdi. O, hətta insanlara fiziki cəzalar da verə bilirdi. Şultsun razılığı olmadan koloniyanın hüdudlarından kənara çıxmaq olmazdı, hər bir insan qayğı və diqqətlə əhatə olunmuşdu, vaxt da, ətrafdakılar da birmənalı qiymətləndirilə bilməzdi. İdarəçilərin bir qara lövhəsi vardı ki, buraya əxlaqsızlığa yol verən kəndlilərin adları salınırdı.

İcmanın əmin-amanlığı daha bir mühüm faktor - sərt sanitar nəzarətinin mövcudluğu idi. Burada təmizlik kultu - ictimai, məişət, ev təmizliyi kultu hakim idi. Mütəmadi olaraq quberniya rəhbərliyinə koloniyada kənd təsərrüfatı üçün zərüri sayılan zəhərli və kəskin təsirli maddələrin alqı-satqısına dair provizor məlumatı göndərilirdi. Burada həmçinin süni şəkildə düzəldilən mineral sulara dair məlumatlar da əks olunurdu. İllər keçir, Yelenendorf koloniyası böyüyür və varlanırdı, onun yaşadığı beş yuxarı küçə başdan-başa evlərlə, malikanələrlə məskunlaşmışdı. Küçələr əvvəllər işgüzar şəkildə nömrələnirdi: birinci küçə, ikinci küçə və s. 90-cı illərdə icmanın iqtisadiyyatında yüksəliş qeydə alınır. Onun başlıca məşğuliyyət sahəsi şərabçılıq, iri sənaye, texnika yenilikləri ilə fərqlənirdi.

Bütün bunlar isə icmanın simasında təxirə salınmaz izlər buraxırdı. Tikililər gözəlləşir, xiyaban və bağlar genişlənirdi. Birinci dünya müharibəsi ərəfəsində küçələrə adlar verildi: Vadi küçəsi (Talştrasse), Kilsə küçəsi (Kirxştrasse), Yelenin küçəsi, Bağlar küçəsi və s. Evlər nömrələnməyə başlandı, əvvəllər onlar sahiblərinin adı ilə çağrılırdı. Evlərə elektrik işığı gəldi, koloniyada yeni pastorat və poçt-teleqraf binası tikildi. Misal üçün 1911-ci ildə Yelenendorfda 1054 daş bina vardı ki, bunun da 415-i yaşayış evi idi. Artıq koloniyada ağac evlər qalmamışdı. Tikintinin tempinə gəlincə, 2 il ərzində (1911-1913-cü illər) burada daha 15 xüsusi mülk tikilmişdi. Kəndin həyatı mədəni şəhər qəsəbəsi üslubu alırdı, hərçənd sakinlər yalnız şərabçılıq, əkinçilik və bağçılıqla deyil, həm də heyvandarlıqla fəal məşğul olurdular. 1912-ci ildə yelenendorfluların 317 atı, 695 inəyi, 239 buzovu, 72 donuzu vardı.

1900-cu illərin əvvəllərində burada şərab istehsalı və xarici ticarət çox güclü inkişaf etməyə başla-

dı. Hər bir evin altında, zirzəmidə böyük şərab çə
ləkləri yerləşirdi. Bu kəndin məhsulları artıq o z
man demək olar ki, hər yerdə məşhur idi. Xüsusi
carət evləri olan "Forer qardaşları" və "Hummel qa
daşları" özlərinin istehsal etdikləri yüksək keyfiyyə
li məhsullarını ixrac edirdi. Eyni zamanda onlar
özlərinin xüsusi məhsul nişanları da var idi. Azə
baycandakı şərabçılıq sənayesinin inkişafı eyni z
manda Forer və Hummel qardaşlarının adı ilə bağl
dır. 1914-cü ildə Forer və Hummel qardaşlarının şə
rab firmalarının bir illik gəliri bir milyon manat təş
kil edirdi. 1912-ci ildə Helenendorfda Forer qardaş
ları dəyirman da tikmişdilər. Helenendorfun iqtisad
və mədəni həyatında Andreas və Albert qardaşlar
Fridrix və Qottlob Vaker qardaşları, Karl Tsexinya
Ernst Kerero, Eduardo Frike və başqaları böyük ro
oynamışdır.

***Şərabçılıqdan sonra burada faytonçuluq sə
nəti xüsusilə geniş yayılmışdı. Onların düzəlt
dikləri faytonlar təkcə Azərbaycanda deyil, de
mək olar ki, bütün ölkədə məşhur idi. 1877-78
ci illərdə Türkiyə ilə başlanan müharibə fay
tonçuluğun daha da sürətlə inkişaf etməsinə
təkan verdi. Hər bir fayton üçün o zaman 500
manat pul verilirdi ki, bu da o zaman bir fayton
üçün çox böyük məbləğ idi. Faytonçular rus
ordusu üçün bu zaman 23 dördatlı fayton
düzəltməkdə təkcə öz həmvətənlərinə deyil,
həm də Qafqazda olan başqa qoşunlara və döv-
lətlərə də kömək edirdilər.***

***Çingiz Abdullayev,
texniki elmlər namizədi***